# XİDMƏT MÜQAVİLƏSİ №

**Bakı şəhəri** **“____” ____________**
**2023-cü il**

Bu Müqaviləni, bir tərəfdən Azərbaycan qanunvericiliyinə müvafiq olaraq yaradılmış və fəaliyyət göstərən (VÖEN ----------), hüquqi ünvanı Bakı ş., ------------ olan direktor-------------**“-------------” Məhdud Məsuliyyətli Cəmiyyəti** (bundan sonra - **“İcraçı”** adlanacaq),

digər tərəfdən**___________________________________(**bundan sonra - **“Sifarişçi”** adlanacaq) bağladılar.

Sifarişçi və İcraçı bundan sonra bu Müqavilədə birlikdə “**Tərəflər**” ayrı-ayrılıqda isə “**Tərəf**” kimi də adlandırıla bilər.

## TƏSDİQLƏMƏLƏR:

**Nəzərə alaraq ki,** İcraçı bəyan və təsdiq edir ki, onun Müqavilə ilə nəzərdə tutulmuş işlərin görülməsi və xidmətlərin göstərilməsi üçün müvafiq təcrübəsi, yüksək dərəcəli peşəkar heyəti və bütün digər lazımi vasitələri, bacarıq və istəyi vardır və qanunvericiliklə nəzərdə tutulmuş və tələb olunan bütün lazimi şərtlərə malikdir; və

**Nəzərə alaraq ki,** hər iki Tərəfin, bu Müqavilə ilə nəzərdə tutulmuş şərtlər əsasında müvafiq işlərin görülməsi və xidmətlərin həyata keçirilməsinə dair müqavilə münasibətlərinə daxil olmaq niyyəti vardır.

**Bununla təsdiq edirik ki,** yuxarıda şəhr edilənlərin və aşağıda göstərilmiş öhdəliklərin m surətdə qarşılıqlı yerinə yetirilməsi üçün Tərəflər aşağıdakılar barədə razılığa gəlmişlər:

## 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1. İcraçı Sifarişçinin istifadəsində olan___________iaşə obyektinin (bundan sonra – Obyekt))___________rayonu ərazisində yerləşdiyi _______m$^2$ sahəni müəyyən edir və onun bu sahədə kommersiya fəaliyyətini həyata keçirməsinə şərait yaratmağı öhdəsinə götürür. İcraçı Obyekt ətrafı ərazinin (bundan sonra-Ərazi) mühafizəsini, kommunal, yaşıllıqlara qulluq və digər xidmətlərin göstərilməsini təşkil etməyi, Sifarişçi isə bu xidmətləri qəbul edib, bunun müqabilində İcraçıya hər ay bu müqavilə ilə müəyyənləşdirilmiş haqqı ödəməyi öhdəsinə götürür.

1.2. Xidmətlərin həcminin artırılmasına və eləcə də mahiyyətinin dəyişdirilməsinə yalnız Tərəflərin qarşılıqlı yazılı razılıqları əsasında yol verilir.

1.3. İcraçı kommersiya fəaliyyətinin ətraf-mühitə xələl gətirmədən həyata keçirilməsinə nəzarət hüququnu özündə saxlayır.

1.4. Müqavilənin predmeti ilə əlaqədar Tərəflər arasında yaranan bütün münasibətlər və eləcə də, Müqavilənin mövcudluğu və onun icrası ilə bağlı bütün mübahisə və fikir ayrılıqları bu Müqavilə və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin normaları ilə tənzimlənir.

## 2. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

### 2.1. İcraçının aşağıdakı hüquq və vəzifələri vardır:

2.1.1. Bu Müqavilənin predmetində nəzərdə tutulmuş öhdəlikləri lazımi səviyyədə yerinə

yetirmək;

2.1.2. Sifarişçinin ona məlum olan kommersiya sirrini qorumaq;

2.1.3. Sifarişçinin bu Müqavilə üzrə öhdəliklərini lazımi qaydada yerinə yetirməməsi və ya digər qanunazidd əməlləri ilə üzləşdikdə ona, pozuntuların aradan qaldırılması haqqında xəbərdarlıq etmək;

2.1.4. Pozuntuların aradan qaldırılması haqqında Sifarişçiyə edilmiş iki xəbədarlıqdan sonra Sifarişçinin Azərbaycan Respublikası qanunvericiliyinə və bu Müqaviləyə zidd əməllərini davam etdirməsi halında, birtərəfli qaydada bu Müqaviləyə xitam vermək;

2.1.5. Sifarişçinin bu Müqavilə üzrə öhdəliklərini yerinə yetirməməsi və digər qanunazidd əməllər etməsi ilə əlaqədar İcraçıya dəyən zərərin tam ödənilməsini tələb etmək;

2.1.6. Sifarişçinin Ərazidə kommersiya fəaliyyəti nəticəsində əhalinin istirahətinə mane olan hallar yarandıqda, bu halların Sifarişçinin hesabına aradan qaldırılmasını tələb etmək;

2.1.7. Xidmətlərin yerinə yetirilməsi vaxtı İcraçı texniki təhlükəsizlik qaydalarına və ekoloji normalara riayət etməlidir.

2.1.8. İcraçı xidmətləri qüsursuz və üçüncü şəxslərin iddialarını yaratmadan yerinə yetirməlidir.

**2.1. Sifarişçinin aşağıdakı hüquq və vəzifələri vardır:**

2.1.1. Müqavilə üzrə razılaşdırılmış məbləği vaxtında, tam və lazımi qaydada İcraçıya ödəmək;

2.1.2. Ərazinin, habelə həmin ərazidəki ekoloji mühitin, təbiət obyektlərinin korlanmasına səbəb olan fəaliyyətə yol verməmək;

2.1.3. Ərazidə kommersiya fəaliyyətini qanunauyğun qaydada həyata keçirmək, Obyektdə əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarını təmin etmək ;

2.1.4. Ərazidə fəaliyyəti ilə bağlı bu Müqavilədən irəli gələn bütün öhdəliklərini vaxtlı-vaxtında və lazımi qaydada yerinə yetirmək, əks təqdirdə İcraçıya dəyən ziyanı tam şəkildə ödəmək;

2.1.5. Fəaliyyət göstərdiyi ərazinin və obyektin bütün fəaliyyətini və təmir işlərini öz vəsaiti hesabına təşkil etmək, habelə fəaliyyət göstərdiyi sahədə sanitar-gigiyenik (Obyektdə yayılan səslərin 70 db ötməməsi, çirkab su xətlərinin məişət-kanalizasiya şəbəkəsinə qoşulması, tüstüatıcı borularda müasir tələblərə uyğun qaz, toz və yağ tutucu qurğuların quraşdırılması, çirkab sularının buraxılma yerlərində yağtutucuların quraşdırılması) yanğından mühafizə və texniki-təhlükəsizlik qaydalarına (istismar zamanı şəhərsalma və tikinti normalarına, yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi, istifadə edilən materialların odadavamlılıq tələblərinin gözlənilməsi, atmosfer təsirlərinə davamlılıq tələblərinə əməl olunması) riayət etmək;

2.1.6. Göstərdiyi bütün fəaliyyət üçün təkbaşına məsuliyyət daşımaq;

2.1.7. İcraçının ona məlum olan kommersiya sirrini qorumaq;

2.1.8. İcraçının bu Müqavilə üzrə öhdəliklərini yerinə yetirməməsi nəticəsində ona dəymiş zərərin ödənilməsini tələb etmək.

## 3. XİDMƏT HAQQI VƏ ÖDƏNİŞ ŞƏRTLƏRİ

3.1. Bu Müqavilə üzrə Sifarişçi tərəfindən hər ay İcraçıya ödənilməli olan məbləğ ___________manat təşkil edir və bu məbləğə Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 150-ci maddəsində tutulan vergi daxil deyildir. Tətbiq edilən vergilər və digər məcburi ödənişlər bütün hallarda xidmət haqqına daxildir və İcraçı tərəfindən öz hesabına ödənilir. Əlavə Dəyər Vergisi göstərilən Xidmət Haqqı məbləğinə daxil deyil və Sifarişçi tərəfindən əlavə olaraq ödənilməlidir.

3.2. Bu Müqavilədə göstərilmiş aylıq ödənilməli olan məbləğ Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında dəyişdirilə bilər.

3.1. Sifarişçi tərəfindən İcraçıya bu Müqavilə üzrə aylıq ödənişlər hər ayın_____________-dək İcraçının bank hesabına köçürmə yolu ilə ödənilməlidir.

3.2. Obyekti elektrik enerjisi ilə İcraçı təmin edəcəyi təqdirdə, elektrik enerjisindən istifadə haqqını Tərəflərin səlahiyyətli nümayəndələrinin dövri olaraq tərtib edəcəkləri və özündə sayğacın son göstəricisini əks etdirəcək, səlahiyyətli nümayəndələrin imzaları ilə təsdiq edilmiş akt əsasında, səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş qiymətlərə uyğun olaraq Sifarişçi ödəyir.

3.3. Obyektin Sifarişçi tərəfindən istifadəsi ilə bağlı kommunal və bütün digər xərclər aylıq İcraçıya ödənilən aylıq ödənişə daxil deyildir.

3.4. Sifarişçi Müqavilənin 3.1. bəndində göstərilən məbləğə tətbiq olunması qanunla nəzərdə tutulmuş bütün vergilərin və digər məcburi ödənişlərin lazımı qaydada və vaxtında ödənilməsinə görə tam məsuliyyət daşıyır.

3.5. Sifarişçi bu Müqavilənin 3.1. bəndində nəzərdə tutulmuş aylıq məbləğin ödənilməsini 5 (beş) təqvim günündən artıq gecikdirdiyi təqdirdə Sifarişçi gecikdirilmiş hər bir təqvim günü üçün gecikdirilmiş məbləğin 1%-i (bir faizi) miqdarında İcraçıya cərimə ödəyir. Ödəniləcək cərimə məbləği Müqavilənin ümumi məbləğinin 10%-ini ötdükdə, İcraçı öz mülahizəsi və seçimi əsasında, bu cərimənin tətbiq edilməsi ilə yanaşı, həm də aşağıda sadalanan tədbirlərdən birini tətbiq edə bilər:

3.5.1. Bu Müqavilə üzrə istənilən öhdəliklərin (bir və ya bir neçəsinin) icra edilməsindən tam və ya qismən imtina etmək;

3.5.2. və ya xidmətlərin göstərilməsini dayandırmaq; və ya

3.5.3. bu Müqaviləyə birtərəfli qaydada xitam vermək.

3.6. İcraçı tərəfindən yuxarıda göstərilən tədbirlərin həyata keçirilməsi İcraçını Sifarişçidən Müqavilə üzrə yaranmış borc və ya cərimə məbləğlərin ödənilməsini tələb etmək hüququndan məhrum etmir.

## 4. MÜQAVİLƏNİN QÜVVƏDƏ OLMA MÜDDƏTİ

4.1. Hazırki Müqavilə imzalandığı tarixdən qüvvəyə minir və Müqavilə və ya qanunla nəzərdə tutulmuş qaydada vaxtından əvvəl xitam olunduğu hal istisna olmaqla, 31 dekabr 2023-cü il tarixinədək etibarlı hesab edilir.

## 5. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

5.1. Tərəflərin hər biri bu Müqavilə üzrə öz öhdəliklərini hər hansı şəkildə icra etməməsi və ya yaxud lazımi qaydada icra etməməsi nəticəsində Müqavilənin digər Tərəfinə vurmuş olduğu ziyanı tam həcmdə ödəmək öhdəliyini daşıyır.

5.2. İdarə və İcraçı Sifarişçinin bu Müqavilənin predmetindən kənar hər hansı qanunsuz fəaliyyəti, yaxud qanunazidd əməli, habelə əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına əməl etməməsi nəticəsində baş vermiş bədbəxt hadisələr üçün məsuliyyət daşımır.

5.3. Tərəflərdən heç biri digər tərəf qarşısında, bu Müqavilə çərçivəsində və ya onunla əlaqədar, hər hansı dolayı və ya nəticəli itkilər üçün (hətta əvvəlcədən görüləbilən itkilər olduqda və ya bu cür itkiyə məruz qalma ehtimalı haqqında şirkətə məlumat verildiyi təqdirdə) məsuliyyət daşımır. Heç bir halda heç bir tərəf məlumatın itməsi, gözlənilən əmanətlərin və ya xoş niyyətin itirilməsi və ya biznesin itirilməsi, müqavilələr və ya hər hansı bir işin dayandırılması üçün məsuliyyət daşımır.

## 6. MÜQAVILƏYƏ XİTAM VERİLMƏSİ

6.1. Müqavilənin müddəti başa çatdıqda Müqavilə üzrə hüquq münasibətlərinə xitam verilir.

6.2. Müqavilə üzrə hüquq münasibətlərinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilə bilər:

6.2.1. Tərəflərin qarşılıqlı razılığı ilə;

6.2.2. Tərəflərdən biri digərini 15 (on beş) gün əvvəlcədən xəbərdar etməklə və dəymiş zərəri ödəmək şərtilə, Müqavilə üzrə hüquq münasibətlərindən imtina etdikdə;

6.2.3. Tərəflərdən biri Müqavilənin şərtlərini əhəmiyyətli dərəcədə pozduqda.

6.2.4. Tərəflərin iradəsindən asılı olmayan səbəblər üzündən istifadə üçün nəzərdə tutulmuş ərazi yararsız vəziyyətə düşdükdə.

6.3. Müqavilənin 6.2.2-ci maddəsində göstərilən bildiriş müddəti Müqaviləyə onun 3.5-ci maddəsinə əsasən xitam verilməsi halına şamil edilmir. Müqaviləyə onun 3.5-ci maddəsinə əsasən xitam verildiyi halda, xitam haqqında bildiriş Sifarişçiyə təqdim edilməklə dərhal qüvvəyə minir.

6.4. Müqaviləyə xitam verilməsi onun qüvvədə olduğu müddət ərzində yaranmış borcların ödənilməsindən və icra olunmamış digər öhdəliklərin icrasından Tərəfləri azad etmir.

## 7. FORS-MAJOR

7.1. Hazırki Müqavilə üzrə öhdəliklərini yerinə yetirməyən və ya lazımi qaydada yerinə yetirməyən Tərəf, öhdəliyi yerinə yetirməməsini fors-major halların, yəni konkret vaxt hüdudunda meydana gələn qarşısıalınmaz fövqaladə halların səbəbindən baş verməsini sübut etdiyi halda, heç bir məsuliyyət daşımır. Qarşısıalınmaz hallar aşağıdakılardır:

7.1.1. Təbii fəlakətlər (zəlzələ, yanğın, daşqın, vulkan püskürməsi, torpaq sürüşməsi, sunami və s.);

7.1.2. Müqavilə üzrə öhdəliklərin icra edilmə yerində insan üçün normal həyat fəaliyyəti istisna edən müharibə, pandemiya, hərbi əməliyyatlar, kütləvi iğtişaşlar, küləyin gücü, hərarəti və çöküntülərin dərəcəsi;

7.1.3. Dövlət hakimiyyəti orqanlarının qərarları, göstərişləri və Tərəflərin icra olunmalı öhdəliklər üçün fövqaladə hal kimi müəyyən edə bildikləri nəzarət edə bilmədikləri digər hallar.

7.2. Fors-major hallar zamanı Müqavilə və ona əlavələrin icrası fors-major hallarının davam etdiyi müddətədək təxirə salınır.

7.3. Fors-major hallarının təsiri altına düşən Tərəf bu barədə digər Tərəfi belə halların başlandığı andan 3 (üç) təqvim günü müddətindən gec olmayaraq xəbərdar etməlidir.

7.4. Fors-major hallarının mövcudluğu müvafiq dövlət orqanı tərəfindən təsdiq olunmalıdır.

7.5. Fors-major halların başlanmasına istinad edən "Tərəf" bu halların başlanması haqqında digər "Tərəf"i vaxtında xəbərdar etməzsə, həmin "Tərəf" gələcəkdə fors-major hallara istinad edə bilməz.

7.6. Əgər fors-major halları 15 gündən çox davam edərsə, Tərəflər biri digərini xəbərdar edərək Müqaviləyə xitam verə bilər. Bu halda Tərəflərdən heç biri Müqaviləyə xitam verilməsi ilə əlaqədar digərinə yaranacaq itkilərin dəyərinin ödənilməsi üçün məsuliyyət daşımır.

## 8. MƏXFİLİK

8.1. Hər bir Tərəf bundan sonra "Məxfi Məlumat" kimi adlandırılacaq, digər Tərəfin əhəmiyyətli məsələləri, onun rəhbərliyinə, təsisçilərinə, işçilərinə və müştərilərinə aid olan hər hansı texniki, texnoloji, kommersiya, təşkilatı, maliyyə və ya şəxsi xarakterli məlumatların və ya proqramların və ya formasından və tərkibindən asılı olmayaraq başqa informasiyanın, xüsusilə maliyyə məlumatlarının məxfiliyini qorumalıdır.

8.2. Məxfi Məlumatın açıqlanması digər Tərəfin qabaqcadan verilmiş yazılı razılığı əsasında və ya müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq mümkündür.

## 9. YEKUN MÜDDƏALAR

9.1. Bu Müqaviləyə Tərəflərin qarşılıqlı razılığı ilə istənilən vaxt qanunvericiliyə zidd olmayan hər hansı əlavə və ya dəyişiklik edilə bilər. Edilən hər hansı əlavə və ya dəyişiklik hər iki Tərəfin möhürü və səlahiyyətli şəxslərinin imzası ilə təsdiq etdikləri ayrıca sənədlə edilir və bu sənəd Müqavilənin ayrılmaz hissəsi olmaqla, onunla eyni qüvvəyə malik olur.

9.2. Əgər bu Müqavilənin hər hansı müddəası qismən, yaxud bütövlükdə qeyri-qanuni,

etibarsız, yaxud icrası mümkün olmayan hesab olunarsa, belə müddəa (yaxud onun hissəsi) bu Müqavilədən çıxarılmış hesab olunur və bu Müqavilənin digər hissələrinin qanuniliyi, etibarlılığı və icra olunmasının mümkünlüyünə heç bir təsir göstərmir.

9.3. Tərəflərdən heç biri bu Müqavilə üzrə hüquq və öhdəliklərini digər Tərəfin yazılı razılığı olmadan hər hansı üçüncü şəxsə ötürə bilməz.

9.4. Bu Müqavilə ilə tənzimlənməyən digər məsələlərin həlli Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə həll edilir.

9.5. Bu Müqavilənin icrası zamanı meydana çıxan bütün narazlıq və mübahisələr Tərəflərin qarşılıqlı razılığı ilə həll edilir. Tərəflər razılığa gəlirlər ki, hazırkı Müqavilədən irəli gələn və Tərəflər arasında müzakirə yolu ilə həll oluna bilməyən mübahisələr Azərbaycan Respublikasının müvafiq məhkəmə orqanları tərəfindən həll olunur.

9.6. Bu Müqavilə üzrə bütün bildirişlər yazılı şəkildə aşağıda göstərilən ünvanlara qeydiyyatdan keçmiş məktubla, poçt göndərişi, şəxsi çatdırılma yolu ilə və ya faks ilə göndərilir. Hər hansı Tərəfin ünvanı dəyişdikdə, həmin Tərəf digər Tərəfi qabaqcadan yazılı bildiriş göndərməklə xəbərdar etməlidir.

9.7. Müqavilə üzrə görülmüş işlər və göstərilmiş xidmətlər nəticəsində Tərəflərin səlahiyyətli nümayəndələrinin iştirakı ilə bu Müqavilə üzrə təhvil-təslim aktı tərtib edilir və hər iki Tərəfin nümayəndələrinin imzası ilə təsdiq edilir. Təhvil-təslim aktının hər iki Tərəfin imzası ilə təsdiqlənməsi işlərin İcraçı tərəfindən yerinə yetirilməsi kimi hesab olunur.

9.8. Bu Müqavilə Tərəflərin hər birində 1 (bir) nüsxə saxlanılmaqla, iki nüsxədən ibarət tərtib edilərək təsdiqlənib. Müqavilənin hər iki nüsxə eyni hüquqi qüvvəyə malikdir.

## 10. TƏRƏFLƏRİN REKVİZİTLƏRİ VƏ İMZASI

**İcraçı:** **Sifarişçi:**